İPƏK YOLU, No.4, 2025, səh.35-44
https://doi.org/10.30546/SI.2025.4.6.510

# AZƏRBAYCAN RESPUBLİKASININ POST-MÜNAQİŞƏ ZONALARINDA DAĞ-MƏDƏN FƏALİYYƏTİNİN HÜQUQİ VƏ İNSTİTUSİONAL ƏSASLARI

**Aqşin Cəfərov**

İqtisadiyyat İnstitutu, Elm və Təhsil Nazirliyi, Bakı, Azərbaycan
e-mail: akshin13@gmail.com

**Xülasə.** Dağ-mədən fəaliyyəti yalnız iqtisadi məsələ deyil, həm də hüquqi, ekoloji və sosial kontekstə malik kompleks bir sahədir. Məqalədə post-münaqişə zonalarında dağ-mədən sənayesinin bərpası və inkişafı yalnız normativ-hüquqi bazanın təkmilləşdirilməsi, institusional koordinasiyanın gücləndirilməsi və beynəlxalq standartların tətbiqi ilə deyil, həm də ekoloji təhlükəsizlik və sosial məsuliyyət prinsiplərinin reallaşdırılması ilə dayanıqlı xarakterə malik olması təhlil edilmişdir.

**Açar sözlər:** Post-münaqişə zonaları, dağ-mədən sənayesi, hüquqi əsaslar, institusional əsaslar, resursların idarə olunması.

## LEGAL AND INSTITUTIONAL FOUNDATIONS OF MINING ACTIVITIES IN THE POST-CONFLICT ZONES OF THE REPUBLIC OF AZERBAIJAN

**Agshin Jafarov**
*Institute of Economics, Ministry of Science and Education, Baku, Azerbaijan*

**Abstract.** Mining is not only an economic issue, but also a complex area with a legal, environmental and social context. The article analyzes the sustainability of the recovery and development of the mining industry in post-conflict zones not only through the improvement of the regulatory framework, strengthening institutional coordination and the application of international standards, but also through the implementation of the principles of environmental safety and social responsibility.
**Keywords:** Post-conflict zones, mining industry, legal framework, institutional framework, resource management.

## ПРАВОВЫЕ И ИНСТИТУЦИОНАЛЬНЫЕ ОСНОВЫ ГОРНОДОБЫВАЮЩЕЙ ДЕЯТЕЛЬНОСТИ В ПОСТКОНФЛИКТНЫХ ЗОНАХ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

**Агшин Джафаров**
*Институт Экономики, Министерства Науки и Образования, Баку, Азербайджан*

**Резюме.** Горнодобывающая промышленность - это не только экономическая проблема, но и сложная сфера с правовым, экологическим и социальным контекстом. В статье анализируется устойчивость восстановления и развития горнодобывающей промышленности в постконфликтных зонах не только за счёт совершенствования нормативно-правовой базы, усиления институциональной координации и применения международных стандартов, но и за счёт внедрения принципов экологической безопасности и социальной ответственности.
**Ключевые слова:** Постконфликтные зоны, горнодобывающая промышленность, правовые основы, институциональные основы, управление ресурсами.

## 1. Giriş

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazisi olan Qarabağ iqtisadi rayonu zəngin mineral xammal ehtiyatlarına malikdir. Münaqişədən sonrakı dövrdə bu resursların iqtisadi dövriyyəyə cəlb edilməsi ölkənin sosial-iqtisadi inkişafına mühüm töhfə verməklə yanaşı, regionda dayanıqlı sülh və əməkdaşlığın təmin olunmasında da əhəmiyyətli rol oynayır. Bununla belə, dağ-mədən sənayesinin bərpası və inkişafı yalnız iqtisadi maraqlara deyil, həm

də ekoloji, sosial və hüquqi çərçivələrin möhkəm əsaslara söykənməsinə bağlıdır. Məqalədə post-münaqişə zonalarında dağ-mədən fəaliyyətinin hüquqi tənzimlənməsi, institusional mexanizmlər, beynəlxalq təcrübənin tətbiqi və mövcud çağırışlar araşdırılmışdır.

Ölkəmizdə dağ-mədən fəaliyyəti bir sıra normativ-hüquqi baza əsasında tənzimlənir. Bu sistemin formalaşmasında əsas məqsəd mineral ehtiyatların səmərəli istifadəsi, ətraf mühitin qorunması, həmçinin yerli əhalinin sosial rifahının təmin edilməsidir. Post-münaqişə dövründə işğaldan azad edilmiş ərazilərdə dağ-mədən sənayesinin bərpası və inkişafı mövcud qanunvericilik çərçivəsinin daha da gücləndirilməsini zəruri edir. Bu isə öz növbəsində bir sıra normativ-hüquqi aktların təhlil edilməsinə ehtiyacı artırır.

**Normativ hüquqi əsaslar.** İlk öncə qeyd etmək lazımdır ki, 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası (1995) mineral ehtiyatların hüquqi statusunu müəyyənləşdirən ali sənəd kimi çıxış edir [1].

Konstitusiyamızın 14-cü maddəsində qeyd olunmuşdur ki, *“Təbii ehtiyatlar hər hansı fiziki və ya hüquqi şəxslərin hüquqlarına və mənafelərinə xələl gətirmədən Azərbaycan Respublikasına mənsubdur”*. Bu müddəa təbii ehtiyatların özəlləşdirilməsini istisna etməklə yanaşı, onların istifadəsi zamanı dövlətin iqtisadi, ekoloji və sosial siyasətinə riayət olunmasını da tələb edir. Post-münaqişə ərazilərində aparılan mədən işlərinin hüquqi legitimliyi də məhz bu ali sənədin prinsipinə əsaslanır. Bundan əlavə 1998-ci ildə qəbul edilmiş “Yerin təki haqqında” Azərbaycan Respublikasının qanunu [3] dağ-mədən fəaliyyətinin əsas normativ çərçivəsini müəyyən edir. Burada mineral ehtiyatların kəşfiyyatı, hasilatı, qorunması və istifadəsi ilə bağlı prinsiplər, həmçinin lisenziyalaşdırma və nəzarət mexanizmləri əks edilmişdir. Həmçinin, xüsusi əhəmiyyətli mineral resursların təkrar istismarının qarşısının alınması, ekoloji balansın qorunması və innovativ texnologiyaların tətbiqi bu qanuna əsaslanır.

Dağ-mədən sənayesinin fəaliyyəti ekoloji baxımdan riskli sahə olduğu üçün adı çəkilən sənayenin fəaliyyətində *“Ətraf mühitin mühafizəsi haqqında”* Azərbaycan Respublikasının qanunu [3] bir neçə dövlət proqramları və xüsusi normativ aktları, eləcə də investisiya və tərəfdaşlıq müqavilələri əsas nəzərə alınan hüquqi normalar sırasındadır. Bu hüquqi-normativ sənədlər eyni zamanda strateji sənədlər kimi mineral ehtiyatların istifadəsində sosial-iqtisadi prioritetlərin müəyyən edilməsinə, həmçinin dövlət-özəl tərəfdaşlığının inkişafına imkan yaradır.

İnvestisiya müqavilələri isə yalnız kapital qoyuluşunu deyil, həm də təhlükəsizlik standartlarının tətbiqini, şəffaf idarəetmə mexanizmlərini və sosial məsuliyyətli fəaliyyət prinsiplərini hüquqi şəkildə təsbit edir. Buna görə də post-münaqişə ərazilərində bağlanacaq müqavilələr həm hüquqi mühafizə, həm də beynəlxalq arbitraj mexanizmlərinə çıxışı baxımından daha uyğun olmalıdır. Adı çəkilən qanunvericilik bazalarının kifayət qədər geniş olmasına baxmayaraq post-münaqişə şəraitində yeni çağırışlar meydana gəlir. Bu səbəbdən. hüquqi əsasların inkişafı üçün aşağıdakı istiqamətlər xüsusi aktuallıq kəsb edir:

1. *Ekoloji təhlükəsizlik mexanizmlərinin təkmilləşdirilməsi*. Bu, ətraf mühitə dəyən ziyanın kompensasiyası və mədən fəaliyyətindən sonra torpaqların rekultivasiyası ilə bağlı daha sərt tələblərdir.

2. *Yerli əhalinin hüquqları*. Bu, sosial rifah proqramlarının hüquqi təminatı, məşğulluq və sosial məsuliyyətlə bağlı öhdəliklərin qanunvericilikdə dəqiq göstərilməsini tələb edir.

3. *İnnovativ texnologiyaların hüquqi təşviqi*. Bu, "ağıllı mədənçilik" (Smart Mining) texnologiyalarının tətbiqini dəstəkləyən normativ aktların hazırlanmasıdır.

4. *Şəffaflıq və hesabatlılıq*. Bu, beynəlxalq təşəbbüslərə (EITI, ESG standartları) uyğun hesabatlıq mexanizmlərinin qanuni öhdəlik kimi tətbiqidir.

Azərbaycan Respublikasında dağ-mədən sənayesi ilə bağlı bir sıra statistik göstəricilərə nəzər salaq. Belə ki, azad olunmuş ərazilərin ümumi sahəsi təxminən 10.000 $km^2$-dir. Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin məlumatına əsasən, həmin ərazilərdə 1 milyondan çox mina və partladılmış hərbi sursatlar müəyyən edilmişdir. Ölkəmizdə mədən sənayesinin ÜDM-də payı təxminən 7-8% təşkil edir. Qeyri-neft ixracında metallurgiya və mədən məhsullarının payı isə 10-12%-dir. Qarabağ və Şərqi Zəngəzurda əsas yataqlara mis-qızıl üzrə Qızılbulaq, Söyüdlü, Damcılı və s. aiddir. Qızıl ehtiyatları burada 112 tondan çox olduğu təsdiqlənmişdir. Mis ehtiyatları 200 min tondan çoxdur. İllik potensial hasilat isə qızıl üzrə təxminən 5-10 ton, mis üzrə isə 20-30 min ton proqnozlaşdırılmışdır (Qrafik 1). Yalnız mədən sektoru üzrə iş yeri potensialı 5 mindən çoxdur [2]. Bu statistika onu göstərir ki, ölkəmizdə iqtisadiyyatın diversifikasiyasında işğaldan azad olunmuş ərazilərimizin potensialı yüksəkdir.




**Qrafik 1.** Qarabağda qızıl və mis ehtiyatları ilə illik hasilat müqayisəsi
**Mənbə:** Qrafik Azərbaycan Minatəmizləmə Agentliyinin məlumatı əsasında müəllif tərəfindən tərtib edilmişdir

Azərbaycanın post-münaqişə zonalarında dağ-mədən sənayesinin hüquqi əsasları həm milli qanunvericilik, həm də beynəlxalq standartlarla uzlaşdırılmalı, ekoloji və sosial məsuliyyətli idarəçilik prinsipləri daha güclü hüquqi mexanizmlərlə təmin edilməlidir. Bu, həm regionun dayanıqlı inkişafını, həm də ölkənin beynəlxalq investisiya cəlbediciliyini artıracaq.

**İnstitusional çərçivə.** Azərbaycan Respublikasında dağ-mədən fəaliyyətinin idarə olunması çoxpilləli institusional sistem vasitəsilə həyata keçirilir. Bu sistemdə müxtəlif dövlət qurumları mineral resursların kəşfiyyatı, hasilatı, istifadəsi, ekoloji nəzarət və investisiya proseslərinin tənzimlənməsində iştirak edir. Post-münaqişə şəraitində isə bu qurumların fəaliyyətinin daha səmərəli və koordinasiyalı təşkili xüsusi aktuallıq kəsb edir.

İqtisadiyyat Nazirliyi dağ-mədən sektorunun makroiqtisadi siyasət çərçivəsində inkişafını təmin edən əsas qurumlardan biridir [3]. Nazirliyin funksiyalarına investisiya siyasətinin formalaşdırılması, dövlət proqramlarının icrası, işğaldan azad edilmiş ərazilərin iqtisadi inkişaf planlarına mədən sektorunun inteqrasiyası daxildir. Burada əsas vəzifə mineral ehtiyatların istifadəsini *regional iqtisadi inkişaf, sosial rifah və dayanıqlı məşğulluq* siyasətləri ilə uzlaşdırmaqdır.

Energetika Nazirliyi, adətən, enerji resurslarının idarə olunması ilə əlaqələndirilsə də, mədən sənayesinin tənzimlənməsində də mühüm rol oynayır [2]. Çünki dağ-mədən fəaliyyəti enerji istehlakı və enerji infrastrukturu ilə sıx bağlıdır. Nazirlik, xüsusilə iri miqyaslı sənaye layihələrinin enerji təminatını koordinasiya edir və bu sahədə beynəlxalq tərəfdaşlıqları dəstəkləyir. Post-münaqişə ərazilərində enerji resurslarının diversifikasiyası, *bərpa olunan enerji mənbələrinin* mədən sənayesi ilə inteqrasiyası da Energetika Nazirliyinin fəaliyyətinin prioritetlərindən hesab olunur.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi dağ-mədən fəaliyyətinin ekoloji aspektlərinə birbaşa cavabdeh qurumdur [2]. Nazirlik yer təkinin istifadəsi üzrə lisenziyaların verilməsi, ekoloji qiymətləndirmələrin aparılması, təbiətə dəyən ziyanın monitorinqi və ətraf mühitin qorunması tədbirlərinin icrası funksiyalarını yerinə yetirir. Post-münaqişə ərazilərində uzun illər davam etmiş ekoloji fəsadların (torpaqların deqradasiyası, meşələrin məhv edilməsi, su ehtiyatlarının çirklənməsi) aradan qaldırılması bu qurumun qarşısında daha ciddi öhdəliklər qoyur.

Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi ölkənin mineral ehtiyatlarının kəşfiyyatı, qiymətləndirilməsi və qeydiyyatı ilə məşğuldur [12]. Onun fəaliyyəti mədən sənayesinin *elmi-texniki bazasının* formalaşmasına və resursların idarə edilməsində şəffaf məlumat sistemlərinin qurulmasına xidmət edir. Post-münaqişə ərazilərində yeni yataqların müəyyənləşdirilməsi və iqtisadi dövriyyəyə cəlb edilməsi bu xidmətin əsas strateji istiqamətlərindən biri olacaq.

Azərbaycan İnvestisiya Holdinqi ölkənin strateji əhəmiyyətli dövlət müəssisələrinin idarə olunmasında mühüm rol oynayır. SOCAR isə neft-qaz sektoru ilə yanaşı, dağ-mədən sənayesində də potensial tərəfdaş kimi çıxış edə bilər. Bu qurumların iştirak etdiyi layihələr daha çox *kapitaltutumlu, strateji əhəmiyyətli* və *beynəlxalq tərəfdaşlıq tələb edən* təşəbbüslərlə bağlıdır. Məsələn, iri infrastruktur layihələrinin maliyyələşdirilməsi, innovativ texnologiyaların tətbiqi və xarici investorların cəlbi onların fəaliyyət spektrinə daxildir.

Dağ-mədən sektorunun səmərəli idarə olunması yalnız ayrı-ayrı qurumların fəaliyyəti ilə deyil, onların koordinasiyası ilə mümkündür. Hazırkı şəraitdə müxtəlif nazirlik və dövlət orqanlarının səlahiyyətləri müəyyən qədər üst-üstə düşür ki, bu da *informasiya boşluğu, təkrarlanan funksiyalar* və *idarəetmədə gecikmələr* yarada bilər. Bu problemlərin aradan qaldırılması üçün *mərkəzləşdirilmiş rəqəmsal idarəetmə platformasının* ("Smart Mining Governance Platform") yaradılması məqsədəuyğun görünür. "Smart Mining Governance Platform" anlayışı rəqəmsal texnologiyalara əsaslanan, dağ-mədən sənayesində idarəetmə proseslərini vahid informasiya mühitində birləşdirən innovativ platforma kimi qiymətləndirilir. Bu sistemin əsas məqsədi *şəffaflıq, operativlik, hesabatlılıq* və *dayanıqlı idarəetməni* təmin etməkdir. Platforma dövlət qurumları, özəl şirkətlər, investorlar və ictimaiyyət arasında informasiya mübadiləsini asanlaşdıraraq resursların daha effektiv idarəsini mümkün edir. Onun əsas xüsusiyyətlərinə *rəqəmsal lisenziyalaşdırma, real vaxt rejimində ekoloji monitorinq, açıq məlumat bazası və koordinasiya və sürətli qərar qəbuletmə aid edilir.* Bununla bağlı bir neçə beynəlxalq təcrübəni təhlil edək. Avstraliya dünyanın ən iri dağ-mədən ölkələrindən biri olaraq, hasilat sənayesində şəffaflıq, resursların effektiv idarəsi və beynəlxalq investorların maraqlarını təmin etmək üçün innovativ idarəetmə mexanizmləri tətbiq etmişdir [10]. Bu istiqamətdə yaradılmış *"Mining Cadastre Portal"* (Mədən Kadastr Portalı) dövlət və özəl sektor arasında rəqəmsal platforma üzərindən qarşılıqlı əlaqəni asanlaşdıran, lisenziyalaşdırma və nəzarət proseslərini şəffaflaşdıran mühüm alət kimi qiymətləndirilir. Avstraliya təcrübəsi göstərir ki, mədən sənayesində rəqəmsal kadastr platformaları qlobal bazarlarda ölkənin rəqabət qabiliyyətini artırır, yerli icmaların etimadını möhkəmləndirir və hasilatın ekoloji və sosial təsirlərinin daha dəqiq monitorinqini müəyyən edir. Qeyd etmək lazımdır ki, bu ölkədə dağ-mədən sənayesinin ÜDM-dəki payı 11% təşkil edir. Avstraliyadakı bu model sonradan bir çox ölkə tərəfindən istifadə olunmuşdur. Məsələn, *Qana, Mozambik* və *Monqolustan* Avstraliya nümunəsindən istifadə edərək öz milli mədən kadastr sistemlərini qurmuşdur.

Kanada dünyanın aparıcı mədənçilik ölkələrindən biri olaraq hasilat sənayesində innovativ texnologiyaların tətbiqi ilə seçilir. Bu sahədə tətbiq edilən əsas rəqəmsal alətlərdən biri *"GeoMine"* platformasıdır. Platforma ölkənin geoloji resurslarının səmərəli idarə olunması, açıq məlumat mübadiləsinin təmin edilməsi və hasilat sənayesində şəffaflığın gücləndirilməsi məqsədilə yaradılmışdır. "GeoMine" həm dövlət orqanları, həm də özəl sektor üçün *vahid məlumat bazası və analitik qərar dəstəyi sistemi* funksiyasını daşıyır. Qeyd etmək lazımdır ki, bu ölkədə mədən sənayesinin ixracatdakı payı 20%-dən çoxdur. Azərbaycan üçün belə bir platforma Qarabağ və Şərqi Zəngəzurda aparılacaq mədən işlərinin *şəffaf və hesabatlı* şəkildə idarə olunmasına, həmçinin beynəlxalq investorlara güvən yaradılmasına xidmət edə bilər. Belə bir vahid idarəetmə sistemi həm dövlət qurumlarının fəaliyyətini optimallaşdırar, həm də mədən sənayesində *şəffaflıq, hesabatlılıq* və *dayanıqlı inkişaf prinsiplərinin* tətbiqini gücləndirər.

Azərbaycanın post-münaqişə ərazilərində dağ-mədən sənayesinin inkişafı üçün institusional çərçivə kifayət qədər geniş olsa da, ən böyük çağırış bu qurumlar arasında *səmərəli*

*koordinasiyanın təmin olunmasıdır*. İnnovativ idarəetmə texnologiyalarının tətbiqi, dövlət-özəl tərəfdaşlığının gücləndirilməsi və beynəlxalq standartlara uyğun institusional mexanizmlərin yaradılması gələcəkdə bu sahənin rəqabət qabiliyyətini artıracaq.

## 2. Beynəlxalq təcrübə və standartlar

Post-münaqişə zonalarında dağ-mədən fəaliyyətinin bərpası və inkişafı təkcə milli qanunvericilik və institusional çərçivə ilə məhdudlaşmır. Burada, həmçinin Azərbaycan Respublikasının tərəfdar olduğu beynəlxalq standartlar da nəzərə alınır. Qlobal miqyasda qəbul olunmuş standartların tətbiqi həm ekoloji təhlükəsizlik, həm də iqtisadi cəlbedicilik baxımından mühüm rol oynayır. Beynəlxalq təcrübənin tətbiqi Azərbaycan üçün bir neçə əsas üstünlük yaradır. Bunlara xarici investisiyaların cəlb olunması, layihələrin beynəlxalq maliyyə qurumları tərəfindən dəstəklənməsi, sosial məsuliyyətli idarəçilik modelinin formalaşdırılması, regionun qlobal mədən sənayesi zəncirinə inteqrasiyası və s. aid edilə bilər. Burada beynəlxalq təcrübəyə əsaslanan bir neçə əsas prinsipləri vurğulamaq lazımdır. Bunlardan birincisi, ESG prinsipidir (ingilis dilində - Environmental, Social, Governance) [7]. Bu, müasir mədən sənayesində ekoloji, sosial və idarəçilik aspektlərini əhatə edən fundamental yanaşmadır. Ekoloji aspektdən karbon emissiyalarının azaldılması, su və torpaq resurslarının qorunması, tullantıların təkrar emalı. Qarabağ və Şərqi Zəngəzurda minalanmış və ekoloji cəhətdən zərər görmüş ərazilərin bərpası ESG prinsiplərinin tətbiqini zəruri edir. Sosial aspektdən yerli əhalinin məşğulluğa cəlb edilməsini, sosial infrastrukturun inkişafını, əhalinin sağlamlıq və təhlükəsizlik maraqlarının qorunmasını əhatə edir. İdarəçilik aspekti isə şəffaflıq, hesabatlılıq və korrupsiya risklərinin azaldılmasından ibarətdir. ESG prinsipinin ölkəmizdə tətbiq edilməsi post münaqişə ərazilərində "yaşıl mədənçilik modeli"-nin formalaşmasında böyük potensiala malikdir.

Növbəti beynəlxalq prinsip EİTİ prinsipi adlanır (ingilis dilində - Extractive, Industries, Transparency, Initiative) [11]. Bu təşəbbüs mədən sənayesində şəffaflığı və hesabatlılığı təmin edən beynəlxalq mexanizmdir. Bu modelin tətbiqi dövlət və şirkətlər arasında gəlir bölgüsünün şəffaflığını, ictimaiyyətin layihələrlə bağlı məlumatlara çıxışını və beynəlxalq maliyyə qurumlarının etimadının artması kimi üstünlüklər yaradır.

Digər bir prinsip investisiya layihələrinin beynəlxalq səviyyədə tanınmasını, həm də regionun "ağıllı mədənçilik" (Smart Mining) mərkəzinə çevrilməsini təmin edən İCMM prinsipidir (ingilis dilində - International Council on Mining and Metals) [6]. Bu standart dağ-mədən sənayesində təhlükəsizlik, ekoloji mühafizə və sosial məsuliyyətlə bağlı qlobal təcrübəni özündə birləşdirir. Buraya istehsalatda əməyin mühafizəsi və işçi təhlükəsizliyi, ekoloji fəsadların minimuma endirilməsi və yerli əhali ilə sosial tərəfdaşlıq kimi amillər daxildir.

Qeyd olunanlarla yanaşı xarici investorların hüquqlarının qorunması üçün beynəlxalq arbitraj mexanizmlərinin mövcudluğu vacibdir. Bu mexanizmlər sərmayəçilərin hüquqi cəhətdən risklərini azaldır, investisiya mübahisələrinin obyektiv həllinə zəmanət verir və Azərbaycanın beynəlxalq investisiya imicini möhkəmləndirir. Post-münaqişə zonalarında iri

miqyaslı layihələrdə iştirak edəcək xarici şirkətlər üçün bu mexanizmlər böyük bir strateji əhəmiyyətə malikdir.

Tədqiqat işinin keyfiyyətinin artırılması üçün bir sıra post-münaqişə ölkələrinin müqayisəli təhlilinə də ehtiyac yaranır [7]. Belə ölkələrdən biri olan Bosniya və Herseqovinada müharibədən sonra (1990-cı illərin ortalarında) iqtisadiyyatını bərpa edərkən əsas problemlərdən biri genişmiqyaslı *minalanmış ərazilərin təmizlənməsi* olmuşdur. Təbii resursların istifadəsi uzun müddət məhdudlaşmış, investisiya axını zəifləmişdir. Beynəlxalq təşkilatların dəstəyi ilə mərhələli şəkildə minaların təmizlənməsi və resursların istifadəyə açılması baş vermişdir.

Ruanda soyqırımdan sonra iqtisadiyyatını kənd təsərrüfatı və dağ-mədən sənayesinə əsaslanaraq bərpa etmişdir. Xüsusilə *koltan, qızıl* və *qalay* kimi mineral resursların hasilatında "ağıllı idarəetmə" mexanizmlərinin tətbiqi və beynəlxalq bazarlara çıxış ölkənin ÜDM-də artıma gətirib çıxarmışdır. Lakin qeyri-rəsmi hasilat və ekoloji risklər uzun müddət problemlər doğurmuşdur. 2000-ci illərdə Ruandada mədən sənayesinin ÜDM-də payı 1-2% olduğu halda, rəqəmsal idarəetmə və beynəlxalq bazarlara inteqrasiya nəticəsində bu göstəricinin 6-7%-ə qədər yüksəlməsi müəyyən edilmişdir.

Kosovo münaqişədən sonra zəngin *linyit (kömür) ehtiyatları* və digər mineral resurslardan istifadəni prioritetləşdirmiş, lakin siyasi tanınma problemləri və investisiya riskləri səbəbindən bu potensial tam reallaşdırıla bilməmişdir. Buna baxmayaraq, beynəlxalq donor təşkilatlarının dəstəyi ilə müəyyən mədən layihələri həyata keçirilmişdir.

## 3. Mövcud çağırışlar və problemlər

Azərbaycan Respublikasının post-münaqişə zonalarında dağ-mədən sənayesinin inkişafı böyük iqtisadi potensiala malik olsa da, bu proses bir sıra ciddi çağırışlarla da müşayiət olunur. Həm texniki, həm sosial, həm də ekoloji səviyyədə mövcud olan problemlərin həlli dayanıqlı inkişafın əsas şərtidir. Həmin çağırışları Cədvəl 1-dəki kimi qruplaşdırmaq olar.

– Minalanmış ərazilər: İşğaldan azad edilmiş ərazilərin əsas problemi minalanma və partlamamış hərbi sursatların mövcudluğudur. Bu amil dağ-mədən fəaliyyətinin başlanması üçün ən böyük təhlükəsizlik maneəsi hesab olunur. Yeraltı resursların kəşfiyyatı və hasilatı proseslərində hər hansı texniki işlərin aparılması yalnız tam təhlükəsizlik təmin edildikdən sonra mümkündür. Beynəlxalq təcrübə göstərir ki, mina təmizləmə prosesi həm vaxt, həm də maliyyə baxımından çox çətin və uzunmüddətli bir mərhələdir [13]. Deməli, mədənçilik fəaliyyətinin başlaması üçün ilkin şərt təhlükəsizlik infrastrukturunun yaradılması və beynəlxalq humanitar təşkilatlarla əməkdaşlığın gücləndirilməsidir.

– İnfrastruktur boşluğu: Münaqişədən əvvəl bölgədə mövcud olmuş infrastruktur uzun illər ərzində dağıdılmış və istifadəyə yararsız vəziyyətə düşmüşdür. Hazırda yol-nəqliyyat, enerji təminatı, su təchizatı və logistika şəbəkələrinin əksəriyyəti yenidən qurulma mərhələsindədir. Mədən sənayesinin xüsusilə logistik təminat (faydalı qazıntıların daşınması), enerji təminatı (hasilat proseslərinin enerji tutumlu olması) və istehsal infrastrukturuna çıxış

baxımından güclü bazaya ehtiyacı var. İnfrastrukturun bərpası dövlət proqramlarının əsas prioritetlərindən biri olsa da, bu prosesin sürətləndirilməsi və özəl sektorun cəlbi vacibdir.

**Cədvəl 1.** Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində dağ-mədən sənayesinin inkişafı üzrə mövcud çağırışların təhlili

| Problemlər | Səbəblər | Həll yolları |
|---|---|---|
| Minalanmış ərazilər | İşğal dövründə genişmiqyaslı minalama və partlamamış sursatların qalması | - Beynəlxalq standartlara uyğun mina təmizləmə əməliyyatlarının sürətləndirilməsi<br>- İT əsaslı mina xəritələrinin hazırlanması<br>- Beynəlxalq təşkilatlarla əməkdaşlıq və texnoloji dəstək |
| İnfrastruktur boşluğu | Dağıdılmış yol, enerji, su və logistika şəbəkələri | - Dövlət investisiya proqramlarının gücləndirilməsi<br>- Özəl sektorun və xarici sərmayədarların cəlbi<br>- "Ağıllı infrastruktur" konsepsiyasının tətbiqi |
| İnsan kapitalı çatışmazlığı | Uzunmüddətli işğal nəticəsində kadr potensialının zəifləməsi | - Yerli və beynəlxalq universitetlərlə əməkdaşlıq<br>- Peşə təhsili mərkəzlərinin yaradılması<br>- Diaspora və xarici mütəxəssislərin müvəqqəti cəlbi |
| Ekoloji risklər | Torpaq və su ehtiyatlarının çirklənməsi, təbiətə zərərverici təsirlər | - Ətraf mühitə təsirin qiymətləndirilməsi (EIA) prosedurlarının tətbiqi<br>- Yaşıl texnologiyaların istifadəsi (təkrar emal, tullantıların idarəsi)<br>- Rekultivasiya və torpaq bərpa proqramları |
| Sosial-iqtisadi inteqrasiya | Yerli əhalinin uzunmüddətli məcburi köçkün həyatı, sosial adaptasiya çətinlikləri | - Yerli əhali üçün məşğulluq imkanlarının yaradılması<br>- Sosial təminat proqramlarının gücləndirilməsi<br>- İcmalarla "sosial lisenziya" yanaşmasının tətbiqi |

**Mənbə:** Cədvəl müəllif tərəfindən tərtib edilmişdir

– İnsan kapitalı: Müasir mədən sənayesində rəqabət üstünlüyü yalnız təbii sərvətlərin mövcudluğu ilə deyil, həm də yüksək ixtisaslı mütəxəssislərin bacarıqları ilə ölçülür. Post-münaqişə ərazilərində uzunmüddətli işğal nəticəsində bölgənin kadr potensialı zəifləyib. Bu səbəbdən, mədən mühəndisləri, geoloqlar, ekoloqlar, texniki operatorlar və idarəçilərin bölgəyə cəlb edilməsi vacibdir. İnsan kapitalının inkişafı üçün peşə təhsili proqramları, universitet-sənaye əməkdaşlığı və beynəlxalq təcrübə mübadiləsi xüsusi əhəmiyyət kəsb edir. Əks halda, mədən layihələrinin səmərəliliyi və təhlükəsizliyi təmin olunmaya bilər.

– Ekoloji risklər: Dağ-mədən fəaliyyəti ətraf mühitə ən çox təsir edən sahələrdən biridir. İşğaldan azad olunmuş ərazilərdə illərlə davam edən nəzarətsiz istifadə və ekoloji balansın pozulması nəticəsində torpaq, su və meşə resursları ciddi zərər görmüşdür. Yeni mədən işlərinin aparılması isə əlavə risklər doğura bilər. Bunlara torpağın deqradasiyası və məhsuldarlığın azalması, su ehtiyatlarının çirklənməsi, flora və faunanın məhv edilməsi və tullantıların düzgün idarə olunmaması kimi məsələlər aid edilir. Buna görə də ekoloji risklərin azaldılması üçün ekoloji qiymətləndirmə (EIA) prosedurlarının gücləndirilməsi, yaşıl texnologiyaların tətbiqi və rekultivasiya proqramları zəruridir.

– Sosial-iqtisadi inteqrasiya: Dağ-mədən sənayesinin inkişafı yalnız iqtisadi göstəricilərlə məhdudlaşmamalıdır. Bu prosesin ən mühüm istiqamətlərindən biri yerli əhalinin

iqtisadi və sosial həyata inteqrasiyasıdır. İllərlə məcburi köçkün həyatı yaşayan əhalinin geri qayıdışı zamanı məşğulluq imkanlarının yaradılması, sosial təminat tədbirlərinin gücləndirilməsi və yerli icmalarla korporativ əməkdaşlıq prioritet olmalıdır. Əks halda, mədən fəaliyyəti sosial narazılıq doğura bilər. Müasir beynəlxalq təcrübədə “sosial lisenziya” anlayışı geniş tətbiq olunur - yəni, yerli icmaların dəstəyi olmadan istənilən layihənin uzunmüddətli davamlılığı təmin edilmir.

**Nəticə.** Post-münaqişə zonalarında dağ-mədən sənayesinin inkişafı yalnız iqtisadi qazanc məqsədi daşımamalı, eyni zamanda ekoloji balansın qorunması, sosial inteqrasiyanın gücləndirilməsi və beynəlxalq standartlara uyğun idarəetmə mühitinin yaradılması ilə müşayiət olunmalıdır. Bu yanaşma həm regionun uzunmüddətli dayanıqlı inkişafını təmin edəcək, həm də yerli və xarici investorlar üçün daha əlverişli şərait formalaşdıracaqdır.

Həmçinin aşağıdakı praktik tövsiyələri əldə etmək olar:

- Dağ-mədən sənayesinə dair xüsusi “Post-münaqişə Zonalarında Mədənçilik haqqında Qanun” qəbul edilməli; burada ekoloji standartlar, sosial öhdəliklər və rəqəmsal idarəetmə prinsipləri ayrıca nəzərdə tutulmalıdır;
- “Yer təki haqqında” və “Ətraf mühitin mühafizəsi haqqında” qanunlara əlavələr edilərək “smart mining” texnologiyalarının tətbiqi, ekoloji reabilitasiya və rəqəmsal hesabatlılıq hüquqi baxımdan məcburi edilməlidir;
- Xarici investorların cəlbini asanlaşdırmaq üçün investisiya mübahisələrinin beynəlxalq arbitrajda həlli ilə bağlı mexanizmlər qanunvericilikdə təsbit olunmalıdır;
- Yerli əhali üçün peşə-ixtisas hazırlığı mərkəzləri açılmalı, onların mədənçilik və xidmət sahələrinə inteqrasiyası təmin edilməlidir;
- Dövlət-özəl tərəfdaşlıq mexanizmləri əsasında ekoloji bərpa fondları yaradılmalı, gəlirlərin bir hissəsi məhz təbiətin və sosial infrastrukturun bərpasına yönəldilməlidir.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasının Konstitusiyası. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu. Dərc olunma tarixi: 31-07-1997.
2. Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında qanun. Azərbaycan Qəzeti. Dərc olunma tarixi: 22.08.2021, Nəşr nömrəsi: 176.
3. Ətraf mühitin mühafizəsi haqqında qanun. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu. Dərc olunma tarixi: 31.08.1999, Nəşr nömrəsi: 08, Maddə nömrəsi: 472.
4. Faydalı qazıntılar çıxaran müəssisələrin, dağ-mədən qazmalarının, buruq quyularının və faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan yeraltı qurğuların ləğv və konservasiya edilməsi Qaydalarının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı.
5. https://anama.gov.az/?utm_source=chatgpt.com
6. https://eco.gov.az/az/nazirlik/tabeli-qurumlar/dovlet-mineral-xammal-ehtiyatlarindan-istifade-agentliyi

7. https://eiti.org
8. https://eiti.org/supporters/international-council-mining-and-metals
9. https://smb.gov.az/az/all-news/dag-meden-sahesinde-movcud-imkanlar-ve-perspektivler-movzusunda-biznes-forum-kecirilib
10. https://www.ibm.com/think/topics/environmental-social-and-governance
11. https://www.icmm.com
12. https://www.oecd.org/environment/resources
13. https://www.worldbank.org/en/topic/extractiveindustries
14. Yerin təki haqqında qanun. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu. Dərc olunma tarixi: 30.04.1998, Nəşr nömrəsi: 04, Maddə nömrəsi: 224.